# Tunc dövründə sosial-iqtisadi inkişaf və əhali məskunlaşması problemi (Gəncə-Qazax bölgəsi abidələri üzrə etnoarxeoloji tədqiqat)

**Şamil Nəcəfov**
Azərbaycan Milli Elmlər Akademiyası,Arxeologiya və Etnoqrafiya İnstitutu

**Açar sözlər**: Orta Kür hövzəsi, tunc dövrü, məskunlaşma, sosial-iqtisadi inkişaf, demoqrafiya, miqrasiya.

Kür çayının orta axarı hövzəsinin, daha dəqiq desək Gəncə-Qazax bölgəsinin Tunc dövrünə aid yaşayış yerlərindən və qəbir abidələrindən tapılan maddi mədəniyyət nümunələri Orta Kür hövzəsinin qədim sakinlərinin təsərrüfat həyatının, sosial-iqtisadi münasibətlər sisteminin, əhali məskunlaşmasının və dini dünyagörüşünün bəzi xüsusiyyətlərini aydınlaşdırmağa imkan verir.

Tunc dövründə Orta Kür hövzəsinin qədim sakinlərinin yaratdığı mədəniyyətin izlərinə Kür-Araz, Orta Tunc dövrü mədəniyyəti və Xocalı-Gədəbəy arxeoloji mədəniyyətlərinə aid abidələrdə rast gəlinir. Xüsusilə, yaşayış yerləri və qəbir abidələrində aparılan arxeoloji qazıntılar və bu qazıntılardan əldə edilən elmi nəticələr, Tunc dövründə Orta Kür hövzəsində məhsuldar qüvvələrin inkişaf səviyyəsini, yaşayış məskənlərinin xarakterik cəhətlərini, Tunc dövrü sakinlərinin adət və ənənələrini, həmçinin onların həyatında baş vermiş digər sosial-iqtisadi, ictimai və ideoloji dəyişiklikləri üzə çıxarmışdır.

Orta Kür hövzəsinin bərəkətli və məhsuldar torpaqları bu ərazilərdə əkinçiliyin inkişafı üçün əlverişli şərait yaratmışdır. Bölgədəki əkin sahələri əsasən çaylardan çəkilən arxlar vasitəsilə suvarılırdı. Bəzən əkin sahələrinin çay yataqlarından daha hündürdə yerləşməsi suvarmada ciddi çətinliklər yaradırdı. Buna görə də çayın daha yuxarısından süni qollar ayıraraq uzun kanallar çəkilirdi. Əkinçilik Tunc və Erkən dəmir dövrlərində əhalinin təsərrüfat həyatında mühüm rol oynayırdı. Kür çayının orta axarında yerləşən Tunc dövrünə aid yaşayış yerlərində əkinçiliklə bağlı xeyli artefaktlar tapılmışdır. Bunlar əsasən daşdan hazırlanan əmək alətləridir ki, onlardan yerin şumlanmasında, taxılın biçilməsində, dənin əzilməsində, üyüdülüməsində, döyülməsində istifadə edilmişdir. Tunc dövrünün sonlarından torpağı öküz qoşulmuş ağac və yaxud metal (tuncdan və dəmirdən) ucluğu olan xış vasitəsi ilə, toxa ilə şumlayaraq yumşaldırdılar. Bu fakt onu göstərir ki, metallurgiyanın inkişafı əkinçiliyin daha da genişlənməsinə zəmin ya-

ratmışdı. Kür çayının orta axarında yağıntının miqdarı lazımi qədər olduğu üçün bu qənaətə gəlmək olar ki, əkin sahələrinin əksəriyyəti suvarılmamışdır və burada dəmyə əkinçiliyi ilə məşğul olmuşlar. Əkinçilik alətlərinin inkişafı ilə becərilən sahələr də genişləndirilmişdir.

Tunc dövrünün sonrakı inkişaf mərhələlərində baş verən iqtisadi irəliləyiş ictimai münasibətlərdə dəyişiklik yaradırdı. Natural təsərrüfatda çalışan patriarxal ailələrdə vahid dini görüşlər və bundan irəli gələn adət və ənənələr formalaşırdı. Zəngin avadanlığa, müxtəlif tikinti formalarına malik yaşayış yerləri hövzənin qədim sakinlərinin ictimai təbəqələşmə prosesini, onların mənəvi aləmini və iqtisadiyyatını öyrənmək üçün çox mühüm mənbələrdir.

Əkinçiiyin və maldarlığın, xüsusən metallurgiyanın inkişafı üçün zəngin xammal mənbələrinə malik olan Gəncə-Qazax bölgəsində Tunc dövründə əhali daha da sıxlaşır [1]. Bunu bölgədəki qəbir abidələrinin çoxluğu da sübut edir. Xüsusilə Tunc dövrünün sonu və Dəmir dövrünün əvvəllərində əsasən düzənlik ərazilərdə və qismən də dağətəyi zonalarda nekropolların çoxluğu bunu deməyə əsas verir. Son illərdə Zəyəmçay, Tovuzçay, Həsənsu nekropolları, Zəyəmçay, Borsunlu və Dəllər Cəyir kurqanları kimi ərazisinə görə bir neçə hektar sahəni əhatə edən böyük nekropollar və kurqan qrupları və tədqiq edilmişdir.

İ.H.Nərimanovun fikrincə qəbir abidələrinin müxtəlifliyini yerli təbii şəraitlə aydınlaşdırmaq lazımdır. Müəllifin fikrincə, Azərbaycanın qərb rayonlarında tədqiq edilmiş daş qutu qəbirlər e.ə. II minilliyin sonu-I minilliyin başlanğıcına aiddir. Bu dövrdə yüksək dağlıq rayonların təsərrüfatca mənimsənilməsi prosesi başa çatdırılır və əhali olduqca sıxlaşır [2, s. 117].

İlk Tunc dövründə əkinçilik təsərrüfatının, xüsusən dənli bitkilər istehsalının yüksəlişi istər-istəməz izafi məhsulun toplanmasına səbəb olmuşdur. Belə məhsul ehtiyatı xüsusi quyularda və iri ölçülü təsərrfüt küplərində saxlanılırdı. Qazax düzənliyində qədim taxıl quyularına Babadərviş, Sarıtəpə, Sarvantəpə, Böyüktəpə, Xocaxan, Xunan, II Poylu kimi yaşayış yerlərində təsadüf edilmişdir. Təkcə Qazaxdakı Babadərviş yaşayış yerində 20-dən artıq müxtəlif ölçüdə və dərinlikdə təsərrüfat quyuları aşkar edilmiş və onların bəzilərinin içərisindən hətta taxıl qalıqları tapılmışdır [3, s. 27]. Sarvantəpə yaşayış yerinin 250 m2-lik qazılmış hissəsində 25 təsərrüfat quyusu aşkar edilmişdir ki, onların da hamısı materikdə, yəni mədəni təbəqənin sonunda qazılmışdır. Bu quyulardan ən böyüyünün ağzının diametri 1,5 metr, dərinlyi isə 3 metr olmuşdur. Belə iri ölçülü təsərrüfat quyuları daha çox təsərrüfat anbarı rolunu oynayırdı. İri ailələrin ərzaq anbarı rolunu oynayan bu quyulara taxıl və digər dənli bitkilərin məhsulları yığılırdı. Yastıtəpə yaşayış yerindən isə quyuların birindən xeyli buğda dənələri tapılmışdır. Onlaraın sayı yüzlərlədir. Quyuların hamısının divarları müəyyən daş alətlə çızılmış və sonradan

onun üzəri palçıqla və yaxud gil qarışdırılmış məhlulla suvanmışdır. Bu güman ki, həmin quyuların divarlarının çatlamamsı və uçmaması üçün edilmişdir. Çünki, belə formada qazılmış və hazırlanmış təsərrüfat quyuları daha möhkəm və uzunmüddətli olur, onun içərisindəki ərzaq ehtiyatı isə tam təhlükəsiz qalırdı.

Sosial-iqtisadi inkişaf sosial münasibətlər sistemini formalaşdırırdı. Tayfadaxili və tayfalararası münasibətlərin dinc məcrada getdiyi şəraitdə, iqtisadi faktorlar yüksələn xətt üzrə inkişaf edirdi. İqtisadi münasibətlərin dinc şəraitdə intişar tapdığı zaman əhali məskunlaşması, əhali artımı və yaşayış yerlərinin sahəsinin genişlənməsi bütövlükdə Tunc dövrü cəmiyyətində məhsuldar qüvvələrin inkişafına səbəb olurdu. Tunc dövründə cəmiyyət həyatının sosial-iqtisadi münasibətlərinin inkişafı birbaşa öyrənilən hövzənin – Orta Kür hövzəsinin əlverişli iqlimi, məhsuldar torpaqları, daimi ot və meşə sahələrinin eləcə də gur sulu dağ çaylarının mövcudluğu, ov heyvanlarının çoxluğu ilə əlaqədar idi.

Əkinçiliklə bağlı tapılan artefaktların böyük əksəriyyəti əmək alətləridir. Buraya daş toxalar, ağac və sümük ucluqlar keçirilmiş xışlar, alt və üst dən daşları, sürtgəclər, döyüm alətləri, həvəng və dəstələr, obsidiandan və çaxmaqdaşından hazırlanan oraq dişləri və kəsicilər daxildir. Belə alətlər həm şum və əkin işləri, həm də əkinçilik təsərrüfatı məhsullarının emalında istifadə edilmişdir. Hövzədə dən daşlarının ən ibtidai nümunələrinə Son Neolit və Xalkolit dövrü abidələrində rast gəlinmişdir. Bu daşlar ilk növbədə bir qədər kobud formaları ilə fərqlənir. Lakin, onların daha mükəmməl formalarına da rast gəlinir (Göytəpə, Xocaxan və s. yaşayış yerləri). Tunc dövrünün başlanğıcında isə dən daşları artıq mükəmməl və təkmilləşdirilmiş formaya malik idilər. Onların alt hissələri (alt dən daşları) adətən küncləri dairələşdirilmiş enli daşlardan, üst hissələri (üst dən daşları) isə bu daşların üzərində asanlıqla hərəkət etdirilə bilən yanları çıxıntılı ensiz daşlardan ibarətdir. Qayıqvari dən daşları adlandırılan dən daşlarının işlək olmayan hissələri də hamar olurdu və adətən bu daşlar bərk cinsli qranit, və bazalt cinsli çay daşlarından seçilirdi. Alt dən daşları isə tuf və məsaməli yüngül vulkanik daşlardan olurdu. Ağ rəngli əhəngdaşı materialından olan alt dən daşlarına da rast gəlinmişdir (Yastıtəpə, Ocaqtəpə, Bozalqanlı, Göl yeri və s.). Bəzən sürtülmə nəticəsində alt dən daşları da qayıqvari formaya düşür, orta hissələri ovularaq belə forma alırdılar. Dən daşları yaşayış yerlərindən tapılan daş məmulatının böyük əksəriyyətini təşkil edirlər. Dən daşlarında əsasən dənli bitkilərin məhsulları -buğda,qarabaşaq və s. üyüdülmüş, un və yarma hazırlanmışdır. Q.S.İsmayılzadənin fikrincə yaşayış yerlərindən dən daşlarının həddindən çox tapılmasının səbəblərindən biri də hər bir ailənin özünəməxsus dən daşının olması idi [3, s. 27-28].

Qazıntılar zamanı tapılan artefaktlar sübut edir ki, hövzənin qədim sakinlərinin iqtisadiyyatında mühüm yer tutan maldarlıq bilavasitə əkinçiliklə bağlı olmuş və onunla qarşılıqlı əlaqədə inkişaf etmişdir [4, s. 171].

Maldarlığın inkişafı daimi ət və ət məhsulları ehtiyatı yaradır və süd məhsullarına olan tələbatı ödəyirdi. Hətta, İlk Tunc dövründə artıq qaramaldan qoşqu qüvvəsi kimi də istifadə edilirdi. Süd məhsullarına olan tələbat və bu məhsulların istehsalı gil nehrələrin meydana çıxmasına və dulusçuluq təsərrüfatında bu tip saxsı qabların istehsalının genişlənməsinə səbəb olurdu. Gil nehrələr İlk Tunc dövründən günümüzədək oz formasını və təyinatını dəyişməyən saxsı qablardandır. T.Ə.Bünyadovun fikrincə gil nehrələrin geniş yayılması yaşayış yerlərində maldarlığın inkişafının əsas göstəricilərindəndir [5, s. 114]. Maldarlığın inkişafı istər-istəməz dulusçuluğun yüksək inkişafına səbəb olmuş, gil qabların kəmiyyət artımı ilə yanaşı keyfiyyət artımına da böyük təsir göstərmişdir. İlk Tunc dövrünün başlanğıcında artıq dulusçuluq ev sənətkarlığı çərçivəsindən kənara çıxaraq istehsalın müstəqil bir sahəsinə çevrilmişdi. Qab istehsalında çeşidlər artırdı. Qazıntılar zamanı iri təsərrüfat küpləri, küpələr, xeyrələr, qazanlar və nehrələrlə yanaşı aşkar edilən bardaq, kuzə, sini, tava, kasa, boşqab, duzqabı, butə, dopu, müxtəlif ölçülü silindrik qablar və s. saxsı qabların həm forma, həm də məzmunca müxtəlifliyindən xəbər verir [6, s. 88-89].

Tunc dövründə Orta Kür hövzəsinin sakinlərinin sosial-iqtisadi münasibətlər sisteminin formalaşmasına sənətkarlığın ayrı-ayrı sahələri o cümlədən, toxuculuq, balıqçılıq, yığıçılıq kimi sahələr də təsir edirdi. Şübhə yoxdur ki, Tunc dövründə əkinçilik və maldarlıq kimi iri təsərrüfat sahələrinin sürətlə inkişafı zəminində artıq balıqçılıq, ovçuluq kimi sahələr əvvəlki əhəmiyyətini itirmiş və iqtisadiyyatın yardımçı sahələrinə çevrilmişdi. Bu əlbəttə ki, istehsal təsərrüfatının daha da geniş intişar tapmasının və mənimsəmə təsərrüfatının tədricən tamam aradan çıxmasının göstəricisi idi.

Tunc dövründə yaşayış yerlərinin xüsusiyyətlərinə əsasən müəyyən etmək olur ki, tarixi inkişafın bu mərhələsində yaşayış bilavasitə nəsli icmalar daxilində getmiş, hər bir icmanın ixtiyarında icma üzvləri tərəfindən becərilən torpaq sahələri, ətraf çəmənliklərdə otarılan mal-qara sürüləri olmuşdur. Nəsli icma və ailələr daxilində ev təsərrüfatının, toxuculuğun və yığıcılığın əsas aparıcı qüvvəsi qadınlar idisə, əkinçilikdə, şum işlərində, mal-qara sürülərinin otarılmasında, ovçuluqda, metalişləmədə, dulusçuluqda əsas rol kişilərin üzərinə düşürdü.

Sosial-iqtisadi və ictimai münasibətlərdə, zaman keçdikcə baş verən dəyişikliklər iqtisadiyyatın və məhsuldar qüvvələrin inkişafından, yeni iqtisadi irəliləyişdən irəli gəlirdi. Xış əkinçiliyinə keçid, maldarlığın inkişafı, metalın geniş tətbiqi, ayrı-ayrı sənət sahələrinin ixtisaslaşması Orta Kür hövzəsi sa-

kinləri arasında patriarxal münasibətlərin formalaşmasına, möhkəmlənməsinə zəmin yaradırdı. Tunc dövründə bütün Azərbaycanda sosial-iqtisadi və ictimai münasibətlərdə izlənilən əsas amil məhz bu idi [3, s. 39] . Təsərrüfat və sənətkarlığın əsas sahələri kişilərin ixtiyarına keçərək onların istehsal fəaliyyətinin əsasını təşkil edirdi. Əmək bölgüsündəki bu dəyişikliklərə uyğun olaraq qadınlarla kişilərin ictimai vəziyyəti də dəyişməyə başlamışdı. Təsərrüfat və istehsalda həlledici rol oynayan kişi ailədə və ictimai həyatda da böyük üstünlüyə malik olmuşdu. Bunun əksinə isə qadın əməyi yalnız ev təsərrüfatı ilə məhdudlaşaraq ictimai həyatda öz əvvəlki əhəmiyyətini itirmişdi.

Yaşayış yerlərində aşkar edilən iri həcmli evlər bu evlərin ailə icmalarına mənsub olduğunu göstərir. Əhali artımı ailə icmalarını daha böyük yaşayış evləri tikməyə vadar edirdi [7, s. 10-11]. Məskunlaşma yeni ərazilərin hesabına artırdı. Əhalinin məskunlaşması yaxın ərazilərdən başlayır və uzaqlara doğru yayılırdı. Ailə icmaları daxilindən çıxan üzvlər yaşayış yerlərinə yaxın sahələrdə məskunlaşırdılar. Bu hal sonradan daha uzaq yerlərdə yaşayış yerlərinin seçilməsi ilə nəticələnirdi. Tunc dövründə bəzən lokal miqrasiyalar da baş verirdi. Yaşadıqları yerin yaxınlığında əkinəyararlı torpaq sahələrinin azalması, heyvanlar üçün daimi örüş yerlərinin və meşələrin azalamsı insanları miqrasiya etməyə vadar edirdi [7, s. 18-19]. Bəzən arxeoloji qazıntılar zamanı yaşayış yerlərinin ərazisində mədəni təbəqəni izlərkən heç bir arxeoloji material verməyən lal qatlara rast gəlinir. Bu qat bəzən hətta 15-20 sm-ə çatır. Bu onu göstərir ki, yaşayış yerinin qədim sakinləri miqrasiya səbəbi ilə ərazini tərk etmiş, bir müddət sonra yenə həmin ərziyə qayıtmışlar.

Orta Kür hövzəsində aşkar edilən abidələrin böyük əksəriyyəti Son Tunc-Erkən dəmir dövrünə aiddir [8, s. 85-86]. E.ə. II minilliyin sonu-I minilliyin əvvəllərini əhatə edən bu dövrdə bütün Azərbaycan ərazisində olduğu kimi Orta Kür hövzəsində də artıq ibtidai icma cəmiyyəti dağılır və erkən sinifli cəmiyyət formalaşırdı. Mülki və ictimai təbəqələşmə daha sürətlə gedir, əllərində böyük var-dövlət və sərvət toplayan tayfa başçıları və əyanlar meydana gəlirdi. Din adamları və kahinlər də bu sinifdən idi. Bir faktı da qeyd etmək lazımdır ki, Orta Kür hövzəsində bu proses daha çox və arxeoloji materiallarla uzlaşdırılaraq daha aydın izlənilmişdir [9, s. 136]. Sinfi təbəqələşməni hövzənin nekropollarındakı ayrı-ayrı zəngin avadanlıqlı qəbirlərdə də müşahidə edirik. Qeyd edək ki, Orta Kür hövzəsinin qəbir abidələri yaşayış yerlərinə nisbətən daha çox və daha yaxşı tədqiq edilmişdir. Buna görə də hövzənin qədim sakinlərinin Son Tunc-Erkən Dəmir dövrünə aid təsərrüfat həyatı və məişəti, ictimai-iqtisadi vəziyyəti ilə bağlı ətraflı məlumatlar məhz bu qəbir abidələrindən əldə edilmiş zəngin və maraqlı avadanlıq əsasında öyrənilir [9; 10, s. 178].

Ayrı-ayrı şəxslərin varlanması təsərrüfatın müxtəlif sahələrində yeni işçi qüvvəsinə tələbat yaradırdı. Mal-qara sürülərini otarmaq, əkin sahələrini becərmək üçün xeyli işçi qüvvəsi lazım idi.

Yaşayış yerlərindən müxtəlif ölçülərdə gil möhürlər və əsa başlıqları tapılmışdır. Bu tapıntıları arxeoloqlar hakimiyyət rəmzi sayaraq onların tayfanın yalnız adlı-sanlı şəxslərinə məxsus olduqlarını qeyd etmişlər.

Sosial-iqtisadi inkişafı şərtləndirən əsas məqamlardan biri də qonşu tayfalarla mədəni iqtisadi əlaqələr və bu əlaqələrin yaratdığı lokal miqrasiyalar idi. Sinifli cəmiyyətin mövcud olduğu Ön Asiya vilayətləri ilə qonşuluq Orta Kür hövzəsinin sosial-iqtisadi inkişafına müəyyən təsir göstərirdi, yeni texniki və mədəni nailiyyətləri mənimsəməyə imkan verir, əlaqələri və mübadiləni genişləndirirdi [11]. E.ə. III-II minilliklər ərəfəsində Azərbaycana və Cənubi Qafqaza müntəzəm olaraq qalay daxil olmağa başlayır və bu dövrdən metal əşyaların istehsalında əsas qatqı element olur. Dulus çarxında hazırlanmış bir qisim boyalı saxsı məmulatın meydana çıxması, uzunqulağa, qoşqu atına eyni vaxtda rast gəlinməsi Qədim Şərq ölkələri ilə əlaqələri əks etdirir [11, s. 299-302]. Bu, həm də Orta tunc dövründə Cənubi Qafqazda borulu nizə ucluqlarının, şəbəkəli dəstəkli xəncərlərin və bir sıra Ön Asiya bəzək əşyalarının yayılması ilə sübuta yetirilir [11].

Tunc dövrünün sonlarında tayfalar arasındakı ziddiyyətlərin meydana gəlməsinə səbəb olan iri mal-qara sürülərinin, zəngin taxıl ehtiyatının olması toqquşmalarla nəticələnirdi ki, bu da təbii olaraq demoqrafik vəziyyətə və lokal miqrasiyalara da təsir edirdi. Bu isə öz növbəsində yaşayış yerlərinin görkəmini də dəyişdirirdi. Yaşayış yerləri maksimum şəkildə müdafiə qabiliyyətlərini artırmağa başlayırdılar. Müdafiə istehkamlı və müdafiə qurğulu yaşayış yerləri bu dövrdə meydana çıxırdı. Mükəmməl tikinti texnikasına bələd olan bölgə sakinləri inşaat materialı kimi çiy kərpicdən, möhrədən, daşdan, qamışdan istifadə edirdilər. Bəzən mürəkkəb quruluşlu müdafiə istehkamları dördkünc bürclərlə daha da möhkəmləndirilirdi [12]. Bu dövrdə və eləcə də tunc dövrünün sonlarında Sarıtəpə, Babadərviş, Mingəçevir kimi müdafiə qalalı və hasarsız daimi yaşayış yerləri ilə yanaşı mövsümlük yurd yerləri də yaranmağa başlayırdı (Gədəbəy, Daşkəsən əraziləri). Əhali çoxluğu Son Tunc dövrünün yaşayış yerlərində yarımqazma tipli evlərin geniş yayıldığını göstərir (Yastıtəpə yaşayış yeri) [13, s. 197-198].

Orta Kür hövzəsinin daha çox inkişaf etmiş yerlərində və onunla yaxın bölgələrdə e.ə. II minilliyin sonunda ibtidai icma quruluşunun tənəzzülünü və dağılmasını, erkən sinifli cəmiyyətlərə keçidi,nəinki kəskin əmlak bərabərsizliyi, hətta yazılı mənbələrdə təsdiqlənən xırda siyasi vahidlərin mövcudluğu faktı da nümayiş etdirir. Bu fakt tamamilə aydın surətdə təsdiq edir ki, sosial-iqtisadi münasibətlər yüksələn xətt üzrə inkişaf edədək gös-

tərilən zamandan etibarən keçmişlərdə qalmış nəsli-tayfa prinsipinin əvəzində dövlət hakimiyyətinin ilk fərqləndirici cəhəti olan ərazi bölgüsü meydana gəlmişdi.

**Ədəbiyat:**

1.Исмаилзаде Г.С. Азербайджан в системе раннебронзовой культурной общности Кавказа. Баку, 2008, 303 с.
2.Nərimanov İ.H. Gəncəçay rayonunun arxeoloji abidələri. Bakı, Azərb.SSR EA nəşr-tı, 1958, 142 s.
3.İsmayılzadə Q.S. Quruçay və Köndələnçay vadisində qədim mədəniyyət izləri. Bakı, Elm, 1981, 65 s.
4.Nəcəfov Ş.N. Tunc dövrünün mədəni-tarixi inkişafının təbii coğrafi şərait amili (Gəncə-Qazax bölgəsi üzrə etnoarxeoloji tədqiqat) / Gənc almilərin II Elm Festivalı çərçivəsində "Müasir şəraitdə Azərbaycan tarixi, dili, ədəbiyyatı və fəlsəfəsi qarşısında duran yeni vəzifələr" adlı gənc almilərin respublika elmi konfransının materialları. Bakı, 05-07 mart, 2013-cü il, s. 170-173
5.Bünyadov T.Ə. Azərbaycanda maldarlığın inkişafı tarixindən.Bakı,Elm, 1969, 185s.
6.Наджафов Ш.Н. Некоторые результаты исследований памятников эпохи бронзы на территории Гянджа-Казахского региона / Актуальная археология: археологические открытия и современные методы исследования (Тезисы научной конференции молодых ученых Санкт-Петербурга), РАН ИИМК, Санкт-Петербург 22-23 апреля 2013 г. СПБ, 2013, Изд-во РАН, с. 88-89
7.Nəcəfov Ş.N. Tunc dövründə Orta Kür hövzəsinin məskunlaşmasının təbii-coğrafi şəraiti (Gəncə-Qazax bölgəsi abidələri üzrə etnoarxeolojo tədqiqat) // Azərbaycan arxeologiyası, 2017, № 2, s. 8-21
8.Наджафов Ш.Н. Результаты археологических раскопок на поселении Сарвантепе в 2010-2012 годах / Новые материалы и методы археологического исследования (материалы II международный конференции молодых ученых). Москва, 19-21 марта 2013 г. ИА РАН, Москва, 2013, Изд-во ИА РАН, с. 85-87
9.Nəcəfov Ş.N. Gəncə-Qazax bölgəsinin Xocalı-Gədəbəy mədəniyyəti abidələrində son tədqiqatlar / "Azərbaycan arxeologiya və etnoqrafiya elmləri müstəqillik illərində" beynəlxalq elmi konfransın materialları. Bakı, 10-14 noyabr 2013-cü il, s. 135-137
10.Nəcəfov Ş.N. Sarvantəpədə 2013-cü ildə aparılan arxeoloji tədqiqatlar haqqında // Azərbaycanda arxeoloji tədqiqatlar 2013-2014. Bakı, 2015, s. 176-182
11.Necefov Ş.N., Agalar-zade A.M. Yakındoğu-Anadolu-Kafkasya Üçgeninde Kavimler Göçü ve Kültürel Etikileşimler // Uluslararası Doğu Anadolu-Güney Kafkasya Kültürleri Sempozyumu, Bildiriler I ve II; Ed. by Mehmet Işıklı and Birol Can, Cambridge, Ufuk Çetinkaya, 2015. Cambridge Scholars Publishing, 2015 Lady Stephenson Library, Newcastle upon Tyne, NE62PA, UK s. 299-303

12.İsmayılov Q.S. İlk tunc dövründə Azərbaycan ərazisində yaşayan tayfaların ictimai həyatı və dini təsəvvürləri//Tarix, ictimaiyyət və coğrafiya. Bakı, 1980, № 2
13.Nəcəfov Ş.N., Hacılı Z.C. Yastıtəpə son tunc-ilk dəmir dövrü yaşayış yerində aparılmış arxeoloji qazıntıların yekunları // Azərbaycanda arxeoloji tədqiqatlar 2011. Bakı, 2012, s. 196-206

**Summary**

**Socio-economic Development and Population Settlement Problem in the Bronze Age**
**(Ethno-archeological Research on the Monuments of Ganja-Gazakh region)**


**Shamil Najafov**
Azerbaijan National Academy of Science
Institute of Archeology and Ethnography



The traces of culture created by the ancient inhabitants of the Middle Kura River Basin during the Bronze Age are found in the complex of monuments of Kura-Araz, Middle Bronze Age culture and Khojaly-Gedabey archeological cultures. The archeological excavations carried out in the settlements and grave monuments and the scientific results of these excavations, have revealed the level of development of the productive forces in the Middle Kura Basin during the Bronze Age, the characteristic features of the residential areas, the customs and traditions of the Bronze Age residents, as well as other socio-economic and ideological changes.

The economic advancement in the Bronze Age made a change in public relations. In patriarchal families working in the natural economy, unified religious outlooks and the customs and traditions that emerged from it were being formed. Housing with rich equipment, various construction forms is a very important source for learning the process of social stratification of the ancient inhabitants of the basin, their spiritual world, demography and economy.

Changes over time in socio-economic and social relations were due to the development of productive forces and new economic progress. The transition to the plough farming, the development of cattle breeding, the extensive use of metal, and the specialization of different craft areas contributed to the formation of patriarchal relations, as well as the settlement of the population among the Central Kura basin. This was the main factor in socio-economic and social relations throughout the Bronze Age in the entire Azerbaijan.


Key words: Middle Kura Basin, Bronze Age, population, socio-economic development, demography, migration

## Резюме

## Проблема социально-экономического развития и заселения в период бронзы (Этноархеологические исследования по памятникам Гянджа-Газахского региона)

**Шамиль Наджафов**
Национальная Академия Наук Азербайджана, Институт Археологии и Этнографии

Следы культуры, созданной древними жителями бассейна средней Куры в период бронзы, встречаются в комплексе памятников Кура-Араксской, среднебронзовой и Ходжалы-Кедабекской культуры. На основе археологических раскопок, проведенных на поселениях и могильных памятниках и научных выводов, полученных с этих раскопок, выявился уровень развития производительных сил, характерные особенности поселений, обычаи и традиции обитателей бронзового периода, а также другие социально-экономические, общественные и идеологические изменения, происходящие в их жизни, в бассейне средней Куры в период бронзы.

Экономический рост, происшедший в период бронзы, привел к изменениям в общественных отношениях. В патриархальных семьях, трудящихся в натуральном хозяйстве, формировались единые религиозные воззрения и вытекающие отсюда обычаи и традиции. Поселения, обладающие богатым инвентарем, разнообразными строительными формами, являются очень важным источником в деле изучения процесса общественного расслоения древнего населения, его духовного мира, демографии и экономики.

Изменения, происходящие со временем в социально-экономических и общественных отношениях, вытекали из развития производительных сил и нового экономического подъема. Переход к сошному земледелию, развитие скотоводства, широкое применение металла, специализация отдельных ремесленных отраслей создавали почву для формирования патриархальных отношений между жителями бассейна средней Куры, укрепления этих отношений, а также для заселения бассейна. Именно это является основным фактором, прослеживаемым в социально-экономических и общественных отношениях всего Азербайджана в период бронзы.

**Ключевые слова:** бассейн средней Куры, период бронзы, заселение, социально-экономическое развитие, демография, миграция.